**“Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya”nın təsdiq edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin**

**Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamının icrası ilə əlaqədar **qərara alıram:**

1. “Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya” (bundan sonra – Milli Strategiya) təsdiq edilsin (əlavə olunur).

2. Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin əlaqələndirilməsini “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə yaradılmış Komissiya həyata keçirsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Milli Strategiyada nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 10 oktyabr 2024-cü il

# SU EHTİYATLARINDAN SƏMƏRƏLİ İSTİFADƏYƏ DAİR MİLLİ STRATEGİYA

# MÜNDƏRİCAT


**1. Qısa xülasə** ... 4

**2. Qlobal trendlər** ... 4

**3. Mövcud vəziyyətin təhlili** ... 5

**3.1. Ölkənin mövcud su ehtiyatları** ... 5

**3.2. Su ehtiyatlarının qiymətləndirilməsi vəziyyəti** ... 6

**3.3. Su ehtiyatlarından istifadə** ... 7

**3.4. Su təsərrüfatının idarə edilməsi** ... 8

**3.5. Su təsərrüfatında infrastruktur quruculuğu** ... 8

**4. Hədəf göstəriciləri** ... 9

**5. Milli Strategiyanın məqsədi və prioritet istiqamətləri** ... 10

**6. Gözlənilən risklər** ... 11

**7. Milli Strategiyanın maliyyələşməsi** ... 12

**8. Milli Strategiyanın icrasının monitorinqi və qiymətləndirilməsi** ... 13

**9. 2024−2027-ci illərdə "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiyanın"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı** ... 14

**10. Akronimlər və ixtisarlar** ... 33

## 1. Qısa xülasə

“Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya” (bundan sonra – Milli Strategiya) Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020−2022-ci illər üçün Tədbirlər Planı”nın 2.4-cü bəndinə əsasən hazırlanmışdır.

Milli Strategiyanın icrası su ehtiyatlarının artırılmasını, keyfiyyətli içməli su və suvarma suyu ilə təminatın yaxşılaşdırılmasını, həmin sahədə idarəetmənin müasirləşdirilməsini, habelə beynəlxalq konvensiyaların tələblərinə riayət edilməsi istiqamətində əməkdaşlığın inkişafını nəzərdə tutur.

Milli Strategiya 2024−2040-cı illəri əhatə etməklə üç mərhələdə həyata keçiriləcəkdir:

1. 2024−2027-ci illəri əhatə edən birinci mərhələdə su ehtiyatlarından səmərəli istifadə üçün zəruri infrastruktur və idarəetmə təkmilləşdiriləcəkdir. Bu çərçivədə su ehtiyatlarının yenidən qiymətləndirilməsi, artırılması, inteqrasiyalı idarə edilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından istifadə, tullantı və yağış sularının idarə olunması, suyun keyfiyyətinin yaxşılaşdırılması, su təsərrüfatı obyektlərinin genişləndirilməsi və su itkilərinin azaldılması təmin ediləcəkdir.

2. 2028−2030-cu illəri əhatə edən ikinci mərhələdə təməl şərtlərin möhkəmlənməsi əsasında “təmiz su və sanitariya”, “iqlim dəyişikliyinə qarşı mübarizə”, “dəniz ekosisteminin mühafizəsi” və “torpaq ekosisteminin mühafizəsi” kimi Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədlərinə üstün şəkildə yaxınlaşma təmin ediləcəkdir.

3. 2031−2040-cı illəri əhatə edən üçüncü mərhələdə hidroekoloji böhranların innovativ texnologiyalar əsasında effektiv idarə olunması, su ehtiyatlarının artırılması, habelə alternativ su mənbələrindən istifadəni genişləndirməklə dayanıqlı və keyfiyyətli suya tələbatın ödənilməsi təmin ediləcəkdir.

Milli Strategiyada Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”nda müəyyən olunmuş prioritetlərlə yanaşı, BMT-nin “Dünyamızın transformasiyası: 2030-cu ilədək Dayanıqlı İnkişaf Gündəliyi”ndə nəzərdə tutulan “təmiz su və sanitariya”, “iqlim dəyişikliyinə qarşı mübarizə”, “dəniz ekosisteminin mühafizəsi” və “torpaq ekosisteminin mühafizəsi” sahəsində məqsədləri əhatə edən hədəflər öz əksini tapmışdır.

## 2. Qlobal trendlər

2.1. Dünya ölkələri iqlim dəyişikliklərinin kəskinləşməsi, su ehtiyatlarının azalması və onun ekoloji sistemə mənfi təsirlərinin getdikcə artması kimi ciddi problemlərlə üzləşmişdir. Son 50 ildə davamlı qlobal iqlim dəyişikliyi, əhalinin sürətli artması, urbanizasiya və sənayeləşmə kimi amillər su ehtiyatlarının səviyyəsinə və keyfiyyətinə mühüm təsir göstərmişdir.

2.2. Birləşmiş Millətlər Təşkilatının və digər aparıcı beynəlxalq təşkilatların su ehtiyatlarının vəziyyətinə dair 2024-cü ildə dərc etdiyi hesabata görə dünyada:

**2.2.1. Su çatışmazlığı davamlı artır.** BMT-nin məlumatına görə, dünyada təxminən 2,2 milyard nəfər əhalinin təmiz içməli suya, 3,5 milyard nəfərin isə təhlükəsiz idarə olunan sanitariya xidmətlərinə çıxışı yoxdur. 2050-ci ilədək suya tələbatın təxminən 40 faizdən çox artacağı gözlənilir ki, bu da su qıtlığı problemini daha da kəskinləşdirə bilər. Cənubi Asiya, Yaxın Şərq və Böyük Səhradan cənubdakı Afrika da daxil olmaqla, əhalinin sürətli artımı və iqtisadi inkişaf olan regionlarda su sahəsində problem daha kəskindir.

**2.2.2. Davamlı iqlim dəyişikliyi nəticəsində quraqlıq artır.** 2002−2021-ci illərdə

dünyada 1,4 milyarddan çox insan quraqlıqdan əziyyət çəkmişdir. 2022-ci ilədək dünya əhalisinin təxminən ½-i ilin ən azı bir hissəsində ciddi su stresi yaşayıb, ¼-i isə illik şirin su ehtiyatlarının 80 faizdən çoxunu bərpa olunan mənbələrdən istifadə edərək "son dərəcə yüksək" su stresi ilə üzləşib. İqlim dəyişikliyi bu hadisələrin tezliyini və təsirini artıraraq sosial sabitlik üçün ciddi risklər yaratmışdır. Eyni zamanda yağıntılar Cənub-Şərqi Asiyada və digər ərazilərdə daşqınların artmasına səbəb olmuş, kənd təsərrüfatına və içməli su hövzələrinə mənfi təsir göstərmişdir.

**2.2.3. Buzlaqlar əriyir.** Dünyadakı şirin suyun 69 faizi buz və qar formasındadır. Qlobal istiləşmə nəticəsində Himalay, And və Alp dağlarındakı buzlaqlar kimi mühüm şirin su mənbələri sürətlə əriyir, qar örtüyü isə azalır. Bu, uzunmüddətli dövrdə şirin su ehtiyatlarına çıxışa mənfi təsir göstərə bilər. Həmçinin dəniz səviyyəsinin yüksəlməsi səbəblərinin $^{1}/_{3}$-i dağ buzlaqlarının əriməsi ilə bağlı olmuşdur.

**2.2.4. Texnoloji həllərin tətbiqinə keçid baş verir.** Bu çərçivədə: 1) dəniz suyunun duzsuzlaşdırılması genişlənir. Duzsuzlaşdırma texnologiyaları Səudiyyə Ərəbistanı, İsrail və Birləşmiş Ərəb Əmirlikləri kimi şirin su çatışmazlığı olan ölkələrdə inkişaf etdirilir; 2) su obyektlərinin istifadəsi və mühafizəsi sahəsində "ağıllı" idarəetmə sistemlərinə keçid sürətlənir. Xüsusilə sensorlar və süni intellekt kimi müasir texnologiyalar su ehtiyatlarının daha səmərəli idarə edilməsinə, su itkilərinin azaldılmasına, iqtisadi sahələrdə sudan istifadənin optimallaşdırılmasına imkan verir; 3) su ehtiyatlarının yenilənməsi təşəbbüsləri genişlənir. Sinqapur və İsrail də daxil olmaqla bəzi ölkələr şirin suyun bərpası üçün tullantı sularının təkrar emalı texnologiyalarından fəal şəkildə istifadəyə başlamışdır.

**2.2.5. Beynəlxalq təşəbbüslər genişlənir.** BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri 2030-cu ilədək hər kəsin təhlükəsiz su və sanitariya xidmətlərinə çıxışını hədəfləyir (6-cı məqsəd). Bu məqsədə suyun idarə edilməsinin təkmilləşdirilməsi və çirklənmənin azaldılması daxildir. Əlavə olaraq, beynəlxalq təşkilatlar və xarici dövlətlər su idarəçiliyini yaxşılaşdırmaq, habelə su sahəsində münaqişələrin qarşısının alınmasını təşviq etmək üçün səy göstərirlər.

Qeyd edilənlərlə yanaşı, Türkiyə, Gürcüstan, Rusiya, İran, habelə Qazaxıstan və Türkmənistan kimi qonşu dövlətlərdə iqlim dəyişikliyindən, o cümlədən hava temperaturunun artmasından və yağıntı normalarının azalmasından irəli gələn su ehtiyatlarında dəyişmə, su təchizatı və irriqasiya infrastrukturunda mövcud problemlər, müasir texnologiyaların zəif tətbiqi kimi faktorlar ölkəmizdə su ehtiyatlarının formalaşmasına xeyli təsir göstərir.

## 3. Mövcud vəziyyətin təhlili

### 3.1. Ölkənin mövcud su ehtiyatları

Azərbaycan Respublikasının bərpa olunan şirin su ehtiyatları 26,2 milyard kubmetr təşkil edir. Bunun 8,4 milyard kubmetri yeraltı sulardan, 4,6 milyard kubmetri yerli çay axınlarından və 13,2 milyard kubmetri transsərhəd yerüstü sulardan formalaşır. Bərpa olunan şirin su ehtiyatının 17,8 milyard kubmetri (67,9 faizi) yerüstü şirin su ehtiyatlarından formalaşır. Su ehtiyatları Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə məhduddur və bütün regiondakı su ehtiyatının təxminən 15 faizini təşkil edir. Azərbaycanda adambaşına düşən su ehtiyatı da qonşu ölkələrlə müqayisədə ən aşağı səviyyədədir.

**Bərpa olunan yerüstü şirin su ehtiyatları,** *milyard kubmetr*

| | 2000 | 2005 | 2010 | 2015 | 2020 | 2023 |
|---|---|---|---|---|---|---|
| **Cəmi** | **23,4** | **23,9** | **28,7** | **18,4** | **13,9** | **17,8** |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Transsərhəd su ehtiyatları | 18,8 | 19,6 | 23,1 | 14,2 | 9,4 | 13,2 |
| Yerli çaylar | 4,6 | 4,3 | 5,6 | 4,2 | 4,5 | 4,6 |

Mənbə: Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi

Yerüstü su ehtiyatları, əsasən, çaylarda cəmlənmişdir. Azərbaycanda ümumilikdə 8359 çay vardır. Bunların əksəriyyəti kiçik (uzunluğu 5 km-dən az) və azsuludur. Azərbaycan ərazisinin təxminən 75 faizi Kür çayı hövzəsinə daxildir. Çay suları ehtiyatlarının təxminən 70 faizi qonşu ölkələrin ərazisində, qalanı isə (yerli axım) daxili çaylardan formalaşır.

Quraqlıq illərində transsərhəd su ehtiyatlarının həcmində kəskin azalma müşahidə edilir. Eyni zamanda, Kür və Araz çaylarının su ehtiyatı qonşu ölkələrin ərazisində sugötürücü qurğularla mənimsənilmə nəticəsində xeyli səviyyədə azalır. Bu isə ölkədə suya tələbatın ödənilməsində ciddi çətinliklər yaradır.

Azərbaycanda 140-dan çox su anbarı vardır. Bunların ən böyükləri Kür çayı üzərindəki Mingəçevir (həcmi 15,7 milyard kubmetr), Şəmkir (həcmi 2,7 milyard kubmetr), Araz çayı üzərindəki Xudafərin (həcmi 1,6 milyard kubmetr) və Araz (həcmi 1,3 milyard kubmetr), habelə Tərtər çayı üzərindəki Sərsəng (həcmi 0,56 milyard kubmetr) su anbarlarıdır. Su anbarlarının ümumi həcmi isə 24 milyard kubmetrə yaxındır.

Ölkə ərazisində mövcud olan 700-ə yaxın gölün əksəriyyəti yay aylarında quruyur. Qurumayan təbii göllərin sayı təxminən 250-dir. Sahəsi 1 kvadratkilometrdən çox olan və böyük təsərrüfat əhəmiyyəti kəsb edən göllərin sayı 25-dir. Göllərin ümumi su ehtiyatı 0,9 milyard kubmetrə, şirinsulu göllərin ehtiyatı isə 0,03–0,05 milyard kubmetrə yaxındır.

Azərbaycanda qrunt (yeraltı) suları yüksək keyfiyyəti ilə seçilir. Çaylara axan suyun 16−17 faizi yeraltı suların payına düşür. Yeraltı suların hər il 2 milyard kubmetrdən artığı əkin sahələrinin suvarılmasına və yaşayış yerlərinin su təchizatına sərf edilir. İstismara yararlı qrunt sularının ümumu tutumu bir il üçün 8−9 milyard kubmetr arasında hesablanmışdır. Ən çox ehtiyata malik yeraltı sular Qusar maili düzənliyindədir və ehtiyatı 1,3 milyard kubmetr təşkil edir. Yeraltı sularla ən az təmin olunan ərazi Abşeron yarımadasıdır.

Ölkədə əsas buzlaq zonaları Böyük Qafqaz dağlarında, Qusar çayı üzərində yerləşir. Ötən 70 ildə dağ zirvələrindəki buzlaqların sahəsi xeyli azalmışdır: təxminən 6,6 kvadratkilometr, ehtiyatı isə təqribən 0,08 milyard kubmetr təşkil edir.

### 3.2. Su ehtiyatlarının qiymətləndirilməsi vəziyyəti

2020-ci ildən etibarən hər il ölkənin su təsərrüfatı balansı təsdiq edilir. Ölkə üzrə su ehtiyatlarının fundamental qiymətləndirilməsi 1970−1980-ci illərdə aparılmışdır. Yerüstü sular qismən ölçmə cihazları vasitəsilə qiymətləndirilir. Son illərdə fundamental hidrogeoloji tədqiqatlar aparılmadığından yeraltı su ehtiyatlarının dəqiq qiymətləndirilməsi mümkün olmamışdır. Yeraltı suların əvvəlki illərdə hesablanmış ehtiyatları isə "istismar edilməsi mümkün olan yeraltı su ehtiyatları kimi" ölkənin su ehtiyatlarına daxil edilmişdir.

Yeraltı sulardan istifadə, əsasən, subartezian və artezian quyuları vasitəsilə təmin edilir. Ölkədə 10 mindən çox subartezian və artezian quyusu istismar edilir. Su quyularının 90 faizdən çoxunda suyun dəqiq uçotunun aparılması ölçmə cihazlarının quraşdırılmaması və mövcud mexaniki cihazların işləməməsi səbəbindən mümkün deyildir.

**3.3. Su ehtiyatlarından istifadə**

3.3.1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin (bundan sonra – DSK) məlumatına əsasən, 2010−2023-cü illərdə təbii mənbələrdən götürülən suyun həcmi 10,7 faiz, su istehlakı isə 26,7 faiz artmışdır.

İllik su təsərrüfatı balansının göstəricilərinə görə, ölkə üzrə su mənbələrindən əkin sahələrini suvarma məqsədilə götürülən suyun 50 faizi, əhalinin içməli su təchizatı məqsədilə götürülən suyun isə 37 faizi son istehlakçıya çatmır. Su itkilərinin orta illik həcmi təxminən ölkə ərazisində formalaşan yerüstü su ehtiyatları (4,6 milyard kubmetr) qədərdir.

Qiymətləndirmələrə görə, su itkilərinin yaranmasının səbəblərinə əksər suvarma kanallarının torpaq məcralı olması (75 faiz), müasir suvarma sistemlərinin məhdud tətbiqi (5 faiz), içməli su infrastrukturunun köhnəlməsi, fiziki itkiləri və suların dövlət uçotunun mükəmməl olmaması (sayğaclaşmanın başa çatmaması), suların dövlət uçotundan yayınma, nəzarətdənkənar qoşulmalar nəticəsində yaranan kommersiya itkiləri daxildir.

Təhlükəsiz qaydada təmizlənən çirkab suların xüsusi çəkisi 50 faizdən bir qədər artıqdır. Formalaşan məişət tullantı sularının toplanması məqsədilə ölkə üzrə 3 min kilometrdən çox kanalizasiya kollektorları tullantı sularının sutəmizləyici qurğulara ötürülməsinə xidmət edir.

**3.3.2. İçməli su təchizatı.** DSK-nin 2022-ci il üzrə məlumatına görə, əhalinin 94,1 faizinin içməli su təchizatı mənbələrinə, 34,4 faizinin tullantı sularının axıdılması sisteminə davamlı çıxışı vardır.

Ölkə üzrə ev təsərrüfatlarının 69,6 faizinin suya tələbatı mərkəzləşdirilmiş su təchizatı sistemi ilə təmin edilir. İçməli su təchizatı şəbəkəsinin mövcud olduğu ərazilərdə sayğaclaşma səviyyəsi 88 faizdir.

Əhalinin içməli su ilə təmin edilməsi üçün ölkə üzrə 28,4 kubmetr/saniyə (894 milyon kubmetr/il) su tələb olunur. Lakin faktiki olaraq mərkəzləşdirilmiş formada xidmət göstərilən yaşayış məntəqələrinə mövcud içməli su mənbələrindən 21 kubmetr/saniyə (662 milyon kubmetr/il) su verilir. Bu sahədə mövcud su itkilərinin 37 faiz (7,77 kubmetr/saniyə) təşkil etməsi səbəbindən 13,23 kubmetr/saniyə su əhalinin istehlakına sərf olunur ki, bu da normativ tələblərdən 53,5 faiz (15,2 kubmetr/saniyə) azdır.

**3.3.3. Suvarma suyu təchizatı.** Ölkədə suvarma əkinçiliyinin kənd təsərrüfatı məhsulları istehsalında həlledici rolu vardır. Ümumi suvarılan ərazilər 1,5 mln.ha, suvarmada istifadə olunan su ehtiyatları il ərzində təxminən 7,2 mlrd. kubmetrdir. Suvarılan torpaqlar ölkənin kənd təsərrüfatına yararlı torpaq sahələrinin 31,1 faizini təşkil edir. Bitkiçilik məhsullarının istehsalı 90 faiz suvarmalar hesabına təmin edilir. Kənd təsərrüfatında suvarma suyu əsas etibarilə iki mənbədən əldə edilir: 1) kanallar vasitəsilə təchiz edilən sular; 2) subartezian quyuları vasitəsilə əldə edilən sular. Ölkədə əkin sahələrinin 88 faizi yerüstü mənbələr hesabına suvarılır. Əsas suvarılan ərazilərdə qrunt suları yer səthinə yaxın olduğundan torpağın şorlaşmasının qarşısının alınması və münbitliyinin saxlanması üçün intensiv əkin sahələrində suvarma sistemləri kollektor-drenaj şəbəkəsi ilə təmin edilmişdir. Ümumi suvarılan ərazilərdə innovativ suvarma sistemlərinin tətbiqi aşağı səviyyədədir.

**3.3.4. Enerji sektorunda sudan istifadə.** Ölkə üzrə enerji sisteminin ümumi qoyuluş gücünün 14,6 faizi su elektrik stansiyalarının, 83,4 faizi isə istilik elektrik stansiyalarının payına düşür. Qlobal iqlim dəyişmələrinin regional təzahürləri nəticəsində ümumi elektrik enerjisi istehsalında su elektrik stansiyalarının payı 2010-cu ildəki 18,4 faizdən azalaraq, 2023-cü ildə 6,02 faizə enmişdir.

Çay sularının azalması, yuxarı axın zonalarında sudan istifadənin artması, eyni zamanda ölkə daxilində su obyektlərindən götürülən suyun (geri qaytarılmayan su) miqdarının yüksək olması, həmçinin ölkədaxili çaylarda azsululuq nəticəsində su

obyektlərində suyun səviyyəsi aşağı düşmüş, elektrik stansiyalarında tələbata uyğun soyutma suyunun qəbulunda məhdudiyyətlər yaranmış, su elektrik stansiyalarında istehsal edilən elektrik enerjisi də nəzərdə tutulandan dəfələrlə az olmuşdur.

Ümumi gücü 4505 meqavat olan enerji sistemi stansiyalarının soyutma su təchizatı Xəzər dənizi və Kür çayından asılıdır. Son dövrdə baş verən su çatışmazlığı nəticəsində su hövzələrində suyun səviyyəsi xeyli, o cümlədən Xəzər dənizinin səviyyəsi 2 metr, Kür çayının səviyyəsi isə ("Cənub" Elektrik Stansiyasının ərazisində) 2,2 metr aşağı düşmüşdür.

### 3.4. Su təsərrüfatının idarə edilməsi

Su ehtiyatlarının azalması ilə əlaqədar idarəetmənin təkmilləşdirilməsi sahəsində mühüm işlər görülmüşdür. Su ehtiyatlarından səmərəli istifadənin təmini, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli 1986 nömrəli Sərəncamı ilə müvafiq Komissiya yaradılmış və Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020−2022-ci illər üçün Tədbirlər Planı" təsdiq edilmişdir.

Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetməni təkmilləşdirmək, su ehtiyatlarından səmərəli istifadə etmək, torpaqların meliorasiyası və irriqasiyası işlərinin təşkilini yaxşılaşdırmaq məqsədilə "Su ehtiyatları, su təsərrüfatı və meliorasiya sahələrində idarəetmənin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 mart tarixli 2074 nömrəli Sərəncamı ilə Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi yaradılmışdır.

DSK-nin məlumatına görə, ölkədə su ehtiyatları üzrə inteqrasiyalı idarəetmənin tətbiqi səviyyəsi 55 faiz təşkil edir.

Ölkənin illik su təsərrüfatı balansının elektronlaşdırılması, əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatlarının qiymətləndirilməsinə, subartezian və artezian quyularının istismarına elektron qaydada, o cümlədən real vaxt rejimində nəzarətin həyata keçirilməsi, eləcə də su ehtiyatlarından istifadədə səmərəliliyin artırılması, bu sahədə uçotun və idarəetmənin təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 13 fevral tarixli 1289 nömrəli Fərmanı ilə "Elektron su təsərrüfatı" informasiya sistemi haqqında Əsasnamə" təsdiq edilmişdir.

### 3.5. Su təsərrüfatında infrastruktur quruculuğu

Su infrastrukturu davamlı yaxşılaşdırılır. Bu istiqamətdə Taxtakörpü, Şəmkirçay, Tovuzçay, Xudafərin və Qız qalası su anbarları tikilmiş, Oğuz−Qəbələ−Bakı su kəməri çəkilmiş, Ceyranbatan Ultrasüzgəcli Sutəmizləyici Qurğular Kompleksi inşa edilmiş, rayon və şəhər mərkəzlərində, həmçinin kənd və qəsəbələrdə içməli su təchizatı, eləcə də tullantı sularının idarə edilməsi üzrə tikinti və yenidənqurma işləri həyata keçirilmişdir. Belə layihələrin icra edilməsi nəticəsində əhalinin içməli su təminatı 67 faizə çatdırılmış, əkin sahələri 1,5 milyon hektara qədər genişləndirilmişdir.

İşğaldan azad edilmiş ərazilərdə Suqovuşan, Xaçınçay, Zabuxçay su anbarlarında və 3 su anbarından ibarət Köndələnçay kompleksində bərpa və tikinti işləri aparılmışdır. Qəbələ rayonunda Yengicə su anbarının, Oğuz və Şəki rayonlarının ərazisində isə Əlicançay su anbarının tikintisinə başlanılmışdır. Bundan əlavə, dağ çayları sularının yığılması üçün relyefə uyğun su anbarlarının yaradılması məqsədilə 6 su anbarı, o cümlədən Həkəriçay (Laçın) və Bərgüşadçay (Qubadlı) su anbarlarının tikilməsi istiqamətində işlərə başlanılmışdır.

Başlanğıcını Mingəçevir su anbarından götürən Şirvan və Qarabağ suvarma kanalları yenidən qurulur. Əlavə olaraq, 20 suvarma kanalının, 1 hidroqovşağın və 1 kollektorun yenidən qurulması üzrə işlər görülür.

Eyni zamanda, məhdud su ehtiyatı və artan tələbat şəraitində bütün sahələrdə qənaətedici su texnologiyalarının tətbiqi və tullantı sularının təmizlənərək istifadəsi genişləndirilmişdir. Həmçinin, ölkədə dəniz suyunun duzsuzlaşdırılması yolu ilə içməli su istehsalı sahəsində pilot layihə həyata keçirilir.

## 4. Hədəf göstəriciləri

4.1. Milli Strategiyada qarşıya qoyulan tədbirlərin həyata keçirilməsi nəticəsində aşağıdakı hədəflərə nail olunması nəzərdə tutulur:

4.1.1. su ehtiyatlarının yenidən qiymətləndirilməsi;

4.1.2. su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi;

4.1.3. su ehtiyatlarından səmərəli istifadə edilməsi;

4.1.4. əhalinin dayanıqlı və keyfiyyətli içməli su və sanitariya xidmətləri (kanalizasiya sistemləri və tullantı sularının emal edilməsi infrastrukturunun) ilə təminatının yaxşılaşdırılması;

4.1.5. əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması;

4.1.6. ekosistemin dayanıqlığı və enerji təhlükəsizliyinin təmin olunması;

4.1.7. su təhlükəsizliyinin təmin edilməsi;

4.1.8. hidroekoloji böhranla mübarizənin gücləndirilməsi.

Milli Strategiyanın icrasına nailolma səviyyəsinin göstəricisi qismində aşağıdakı hədəf indikatorları müəyyən edilmişdir:

**Hədəf indikatorları**

<table>
<tr><th></th><th>2024</th><th>2025</th><th>2026</th><th>2027</th><th>2030</th><th>2040</th></tr>
<tr><td>Yerüstü su ehtiyatlarının qiymətləndirilməsi, faizlə</td><td rowspan="2">Texniki-iqtisadi əsaslandırma və layihə sənədlərinin hazırlanması</td><td>70</td><td>80</td><td>90</td><td>100</td><td rowspan="2">Ölkə üzrə məlumatların avtomatik qaydada “Elektron su təsərrüfatı” informasiya sisteminə ötürülməsinin davam etdirilməsi</td></tr>
<tr><td>Yeraltı su ehtiyatlarının qiymətləndirilməsi, faizlə</td><td>60</td><td>70</td><td>80</td><td>100</td></tr>
<tr><td>Su ehtiyatlarının inteqrasiyalı idarə edilməsi və hövzə idarəetmə sisteminə keçid, faizlə</td><td colspan="4">60</td><td>65</td><td>80</td></tr>
<tr><td>İçməli su sistemləri üzrə itkilərin azaldılması, faizlə</td><td>36</td><td>35</td><td>34</td><td>33</td><td>30</td><td>20</td></tr>
<tr><td>Suvarma sistemləri üzrə itkilərin azaldılması, faizlə</td><td>48</td><td>46</td><td>44</td><td>42</td><td>30</td><td>10</td></tr>
<tr><td>İçməli suya tələbatın ödənilməsi, faizlə</td><td>70</td><td>72</td><td>74</td><td>85</td><td>90</td><td>100</td></tr>
<tr><td>Sanitariya xidmətlərinin əhatə dairəsi, faizlə</td><td>40</td><td>41</td><td>42</td><td>43</td><td>47</td><td>57</td></tr>
<tr><td>Kənd təsərrüfatı və digər sahələrin suya tələbatının ödənilməsi, faizlə</td><td>64</td><td>66</td><td>68</td><td>90</td><td>95</td><td>100</td></tr>
<tr><td>Müasir suvarma sistemlərinin tətbiqi, faizlə</td><td>6,5</td><td>7,0</td><td>8,2</td><td>10</td><td>15</td><td>30</td></tr>
</table>

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| Su ehtiyatlarının artırılması (yeni su anbarlarının yaradılması) | 1 | 2 | 3 | 4 | 9 | 13 |
| | Yeni su anbarlarının layihələndirilməsi və tikintisinin həyata keçirilməsi | | | | | |

## 5. Milli Strategiyanın məqsədi və prioritet istiqamətləri

5.1. Milli Strategiyanın hazırlanmasında əsas məqsəd ölkədə su təhlükəsizliyinin qorunması, onun dayanıqlığının artırılması və bu sahədə müasir idarəetmə sisteminin qurulmasıdır. Bununla əlaqədar olaraq aşağıdakı prioritet istiqamətlər müəyyən edilmişdir:

### 5.1.1. Su ehtiyatlarının qiymətləndirilməsi və proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsi

Ölkənin su ehtiyatları hidroloji və hidrogeoloji tədqiqatlarla yenidən qiymətləndiriləcək, monitorinq stansiyaları rəqəmsallaşdırılacaq, məlumatların real vaxt rejimində emalı, habelə risklərin simulyasiyası və rəqəmsallaşması təmin ediləcəkdir. Bununla ölkənin su ehtiyatları barədə real təsəvvür formalaşacaq, iqlim dəyişmələrinin təsirləri nəzərə alınaraq dayanıqlı su mənbələrindən istifadəyə zəmin yaradılacaqdır.

### 5.1.2. Su ehtiyatlarının effektiv idarə edilməsi

Su ehtiyatlarının idarə olunması milli və hövzə səviyyələrində Su Ehtiyatlarının İnteqrasiyalı İdarə Edilməsi (SEİİE) və Çay Hövzəsinin İdarəçiliyinin Planlaşdırılması (ÇHİP) prinsiplərinə uyğunlaşdırılacaqdır. Azərbaycanda hazırkı su idarəçiliyi sistemində SEİİE prinsiplərini daha yaxşı əks etdirmək üçün beynəlxalq təcrübə öyrəniləcəkdir. Mövcud idarəetmə sistemi ölkədə su təsərrüfatları və su hövzələri səviyyələrində optimallaşdırılacaq, dövlət−özəl tərəfdaşlığının inkişaf etdirilməsi sayəsində idarəetmənin səmərəliliyi artırılacaq, sosial-iqtisadi vəziyyət və investisiya qoyuluşu nəzərə alınmaqla tariflər diferensiallaşdırılacaqdır.

Su ehtiyatlarının hövzədaxili və hövzələrarası inteqrasiyalı idarə edilməsinə nail olunacaqdır.

### 5.1.3. Su ehtiyatlarından səmərəli istifadə

Suların dövlət uçotu sistemi təkmilləşdiriləcək və qanunsuz müdaxilələrin qarşısı alınacaqdır. Müasir suvarma üsullarının tətbiqi genişləndirilərək 2027-ci ildə ölkə üzrə 10 faizə çatdırılacaqdır. Şirin su ehtiyatlarının artırılması məqsədilə 4 yeni su anbarı yaradılacaq, su təchizatı infrastrukturunun genişləndirilməsi nəticəsində içməli su təminatı 85 faizə, suvarma suyu təminatı isə 90 faizə çatdırılacaq, alternativ su mənbələrindən istifadə təşviq ediləcək, sayğaclaşma səviyyəsinin 100 faizə çatdırılmasına, içməli su təchizatı üzrə itkilərin 33 faizə və suvarma suyu təchizatı sahəsində itkilərin isə 42 faizə qədər azaldılmasına nail olunacaqdır.

Sanitariya xidmətləri ilə əhatə olunan ərazilərin xüsusi çəkisi 43 faizə çatdırılacaqdır.

### 5.1.4. Su təhlükəsizliyinin təmin edilməsi

Su təhlükəsizliyi sahəsində risklər müəyyənləşdiriləcək və onların aradan qaldırılması ilə bağlı qabaqlayıcı tədbirlər görüləcək, sərhədlərarası razılaşdırılmış fəaliyyətlər vasitəsilə su hövzələri boyunca su ehtiyatlarının inteqrasiyalı idarə olunması inkişaf etdiriləcəkdir. Su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, sudan səmərəli istifadə, tullantı sularının idarə olunması sahəsində mövcud problemlərin həlli məqsədilə qarşılıqlı əməkdaşlıq gücləndiriləcək, formalaşan tullantı sularının effektiv

idarə olunması sayəsində ekoloji tarazlıq qorunacaq, iqlim dəyişikliyinə mitiqasiya və adaptasiya yolu ilə cavab verməklə hidroekoloji böhranlar idarə ediləcəkdir.

Transsərhəd suların idarə edilməsinə dair beynəlxalq konvensiyaların tələblərinə effektiv riayət olunmasına, qonşu ölkələrlə qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsinə və su ehtiyatlarının dayanıqlığına mənfi təsir göstərən məsələlərə beynəlxalq normalar çərçivəsində baxılmasına nail olunacaqdır.

**5.1.5. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatları potensialından istifadə**

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından və hidroenerji potensialından “ağıllı su” sistemlərinin tətbiqi ilə rasional istifadə təmin ediləcəkdir. 28 su elektrik stansiyasının tikintisi başa çatdırılacaq, yerüstü suların hidroenerji potensialı qiymətləndirilərək su elektrik stansiyaları, o cümlədən su təsərrüfatı obyektlərinin imkanları nəzərə alınmaqla kompakt enerji stansiyası yaradılacaqdır. Sağlamlıq, sahil və su turizmi imkanları üzrə qiymətləndirmə aparılacaq, əhalinin içməli su ilə təchizatının daha da yaxşılaşdırılması, əkin sahələrinin suvarma suyuna tələbatının ödənilməsi və su ehtiyatları potensialından səmərəli istifadə edilməsi hövzələrarası su transferini həyata keçirməyə imkan verəcəkdir. Beləliklə, iqtisadi rayonlarda 300 min hektardan çox torpaq sahəsi suvarma suyu ilə təmin ediləcəkdir.

## 6. Gözlənilən risklər

6.1. Ölkədə su ehtiyatlarının azalması, habelə qlobal iqlim dəyişikliyinin davam etməsi nəticəsində yaranan ekzogen təsirlər Milli Strategiyada nəzərdə tutulmuş hədəflərə nail olunmasında aşağıdakı riskləri yarada bilər:

**6.1.1. İqlim dəyişikliyi uzunmüddətli dövrdə qlobal miqyasda əsas çağırışlardan biri kimi qəbul olunur.** Davos İqtisadi Forumunun 2024-cü ilin yanvar ayında dərc edilən “Qlobal Risklər – 2024” hesabatında uzunmüddətli dövrdə ekstremal hava hadisələri, biomüxtəlifliyin itirilməsi və ekosistemin dağılması əsas risklər qismində müəyyən edilmişdir. Ümumdünya Meteorologiya Təşkilatının məlumatına əsasən, növbəti beş ildə temperatur səviyyəsinin sənayeləşmədən əvvəlki göstəricidən 1,5$^{0}$C artma ehtimalı çox yüksəkdir.

**6.1.2. Azərbaycan Respublikasında su ehtiyatları məhdud olmaqla yanaşı, mövsüm və ərazi baxımından qeyri-bərabər paylanmışdır, həcmi isə davamlı azalır.** İqlim dəyişmələrinin təsiri və qonşu dövlətlərin ərazisində istifadə üçün suyun götürülməsi nəticəsində ölkənin su ehtiyatları 1980−2023-cü illərdə 26,4 faiz azalaraq 26,2 milyard kubmetr təşkil etmişdir. O cümlədən bu dövrdə transsərhəd çaylarla ölkə ərazisinə daxil olan yerüstü su ehtiyatları 35,9 faiz azalaraq 13,2 milyard kubmetr, yerli çay axımı 23,3 faiz azalaraq 4,6 milyard kubmetr və yeraltı su ehtiyatları 6,7 faiz azalaraq 8,4 milyard kubmetr olmuşdur. Bu azalma Kür və Araz çaylarında, habelə onların qidalandırıcı qollarında daha kəskindir. 2016−2020-ci illərdə Mingəçevir su anbarına daxil olan suyun ortaillik sərfi saniyədə 344 kubmetrdən 192 kubmetrə (44,2 faiz), Mil-Muğan hidroqovşağına daxil olan suyun ortaillik sərfi isə saniyədə 134 kubmetrdən 99 kubmetrə qədər (26,1 faiz) azalmışdır.

**6.1.3. Əvvəlki illərdə ölkədə əhalinin sayının artması və iqtisadiyyatın inkişafı suya tələbatı davamlı artırmışdır.** DSK-nin məlumatına görə, 2001−2023-cü illərdə təbii mənbələrdən götürülən şirin suyun həcmi 27,9 faiz artdığı halda, istehlak olunan suyun həcmi 52,4 faiz, o cümlədən suvarmada və kənd təsərrüfatının təchizatında 2,0 dəfəyə yaxın artmışdır. Kənd təsərrüfatı iqtisadiyyatın suya ən yüksək tələbat olan sahəsidir.

**6.1.4. Ölkədə temperaturun uzunmüddətli dinamikasında artım müşahidə olunur.** DSK-nin məlumatına görə, Azərbaycan Respublikasında illik orta temperatur

xüsusən 1980-ci ildən etibarən artmağa başlamış və 2023-cü ildə 14,7°C-yə yüksəlmişdir (bundan əvvəlki dövr: 12−13$^0$C). 1915−2000-ci illərdə temperatur artımı illik orta hesabla 0,6°C qeydə alındığı halda, 2000−2020-ci illərdə bu artım 0,8°C-yə bərabər olmuşdur. Son 30 ildə illik isti (maksimum temperaturun 35°C-dən yuxarı olduğu) günlərin sayı 10-dan 15-ə artmışdır.

**6.1.5. Hidrometeoroloji proseslər su ehtiyatlarının azalmasına təsir etmişdir.** Temperatur artımı və buxarlanma Xəzər dənizinə axan suyun həcminin də azalmasına səbəb olmuşdur. 2006-cı ildən etibarən Xəzər dənizində suyun səviyyəsinin ildə orta hesabla 11 sm azalması qeydə alınmışdır. Eyni zamanda, ölkə ərazisində yağıntıların uzunmüddətli dinamikası ümumilikdə sabit olsa da, son onillikdə cüzi azalma müşahidə edilmişdir. DSK-nin məlumatına görə, ölkədə yağıntıların ortaillik miqdarı 2002−2011-ci illərdəki 512,4 mm-dən 2012−2023-cü illərdə 438,6 mm-dək azalmışdır. Azərbaycanla yanaşı, Türkiyə, Ermənistan, Gürcüstan və İranda atmosfer yağıntılarının azalması da su ehtiyatnın həm transsərhəd, həm də yerli miqyasda azalması ilə nəticələnmişdir.

**6.1.6. Növbəti onillikdə Azərbaycan Respublikasında yağıntıların proqnozlaşdırılan səviyyəsi ilə bağlı qeyri-müəyyənlik vardır.** Mövcud qeyri-müəyyənliklər və temperaturun artması su ehtiyatlarının daha çox buxarlanmasına, çay axınlarının azalmasına, buzlaqların sürətlə əriməsinə və nəticədə şirin su ehtiyatlarının azalmasına gətirib çıxara bilər. İl ərzində ardıcıl quru günlərin maksimum sayında müşahidə edilən artım tendensiyası o qədər böyük olmasa da, quraqlıq və su qıtlığı ilə bağlı riskləri artırır.  2023-cü ildə Dünya Bankı tərəfindən dərc edilən Azərbaycan üzrə "Ölkə iqlim və inkişaf hesabatı"nda seçilmiş ölkələrlə müqayisədə aparılan təhlildə növbəti illərdə kəskin iqlim dəyişikliyi və temperaturun artmasının Azərbaycana nisbətən aşağı dərəcədə təsir edəcəyi qeyd olunmuş, hidroenerji istehsalının gücü əsas risk amili kimi önə çəkilmişdir.

**6.1.7. Növbəti illərdə ölkədə su ehtiyatlarında azalmanın davam edəcəyi gözlənilir.** Dünya Resursları İnstitutunun son tədqiqatına əsasən, Azərbaycan 2050-ci ilə qədər su ehtiyatlarının azalması ilə üzləşəcək 164 ölkə arasından 59-cu yerdə qərarlaşıb və orta-yüksək (20−40 faiz su stresi) risk kateqoriyalı ölkə kimi təsnif edilmişdir. Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi haqqında Çərçivə Konvensiyasına təqdim etdiyi Milli Hesabatına əsasən, Azərbaycanın su ehtiyatlarının həcmi (transsərhəd su ehtiyatları ilə birlikdə) qlobal temperaturun artma səviyyəsindən asılı olaraq 2040-cı ilə 5−10 faiz və 2070-ci ilə 10−15 faiz, digər ssenari üzrə isə 2040-cı ilə 10−15 faiz və 2070-ci ildə 15−25 faiz azalacağı proqnozlaşdırılır.

## 7. Milli Strategiyanın maliyyələşməsi

7.1. Milli Strategiyanın maliyyələşməsi dövlət büdcəsi, paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin, digər dövlət müəssisə və təşkilatların, habelə dövlətin yaratdığı publik hüquqi şəxslərin vəsaiti, dövlət−özəl tərəfdaşlığı çərçivəsində yaranan maliyyə vəsaiti, yerli və xarici investisiyalar, beynəlxalq təşkilatların, donorların və fondların vəsaiti, eləcə də beynəlxalq maliyyə qurumları cəlb edilməklə uzunmüddətli güzəştli kreditlər hesabına təmin ediləcəkdir.

Əkin sahələri üçün müasir suvarma sistemlərinin qurulması istiqamətində tədbirlərin icrası kənd təsərrüfatı sahələri üzrə sahibkarların (fermerlərin) ödənişli və güzəştli mexanizmlər (uzunmüddətli kredit xətləri, vergi güzəştləri və s.) vasitəsilə təşviq edilməsi sayəsində təmin olunacaqdır.

7.2. Milli Strategiya bu sahədə digər mövcud proqramlarla uzlaşdığı üçün əsas maliyyə tutumlu tədbirlər aşağıda qeyd olunan plan, proqram və strategiya sənədlərində də öz əksini tapmışdır:

7.2.1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 27 iyul tarixli 2178 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020−2022-ci illər üçün Tədbirlər Planı”;

7.2.2. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının 2022−2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası”;

7.2.3. Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”;

7.2.4. Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023−2027-ci illər üçün Dövlət Proqramı”.

## 8. Milli Strategiyanın icrasının monitorinqi və qiymətləndirilməsi

16 (on altı) illik müddəti əhatə edən Milli Strategiyanın icrası məqsədilə müvafiq prioritet istiqamətlərə uyğun tədbirləri əhatə edən 2024−2027-ci illər üzrə Tədbirlər Planı hazırlanmışdır. Tədbirlər Planına uyğun olaraq, 2028−2030-cu və 2031−2040-cı illər üçün tədbirlər planları hazırlanacaqdır.

Milli Strategiyada 2024–2027-ci illəri əhatə edən Tədbirlər Planının icrası qarşıya qoyulan hədəf indikatorları nəzərə alınmaqla monitorinq olunacaqdır. Monitorinq məqsədilə tədbirlər icra müddətləri nəzərə alınmaqla nəticə indikatorları üzrə ilkin, aralıq və yekun nəticələr olmaqla müəyyən edilmişdir.

Milli Strategiyanın icrası üzrə monitorinq və qiymətləndirmə Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 6 mart tarixli 1294 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Dövlət proqramlarının tərtibi, icrası, monitorinqi və qiymətləndirilməsi Qaydası”na əsasən həyata keçiriləcəkdir.

**9. 2024−2027-ci illərdə "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiyanın"nın həyata keçirilməsi üzrə Tədbirlər Planı**

| Sıra №-si | Tədbirin adı | Əsas icraçılar (fəaliyyət istiqamət-lərinə uy-ğun olaraq) | Digər icraçılar | İcra müddəti | Nəticə indikatorları | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | ilkin nəticələr | aralıq nəticələr | yekun nəticələr |
| **Prioritet 9.1. Su ehtiyatlarının qiymətləndirilməsi və proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsi** | | | | | | | |
| **Məqsəd 9.1.1. Su ehtiyatlarının yenidən qiymətləndirilməsi** | | | | | | | |
| 9.1.1.1. | Kompleks hidroloji və hidrogeoloji tədqiqat işlərinin aparılması | ETSN, ADSEA, NMR NK | RİNN, "Azərenerji" ASC | 2024−2027 | Hidrogeoloji və hidroloji planlaşdırma işlərinin (ilkin kəşfiyyat işləri) aparılması | Kompleks hidrogeoloji, hidroloji, geofiziki tədqiqat işlərinin (dəqiq kəşfiyyat işləri) aparılması | Yeraltı və yerüstü suların istismar ehtiyatının müəyyən olunması |
| 9.1.1.2. | Hidroloji, hidrogeoloji və meteoroloji monitorinq məntəqələrinin genişləndirilməsi və yenilənməsi | ADSEA, ETSN, NMR NK | RİNN | 2025−2027 | Hidroloji, hidrogeoloji və meteoroloji əsaslandırmanın və layihə sənədlərinin hazırlanması | Hidroloji, hidrogeoloji və meteoroloji monitorinq məntəqələrinin sayının artırılması, məlumatların ESTİS-ə inteqrasiyası | |
| 9.1.1.3. | Coğrafi informasiya sistemləri (CİS) əsasında elektron su atlasının yaradılması | ADSEA | ETSN, RİNN, KTN, İN, ETN, "Azərenerji" ASC | 2025−2027 | CİS modelinin qurulması, mövcud xəritələrin elektronlaşdırılması və veb-xəritələşdirmə | Su və su təsərrüfatı obyektləri, o cümlədən infrastrukturları barədə məlumatların CİS-ə inteqrasiyası | Geniş məlumat əsaslı interfeysin işlənilməsi; Elektron su atlasının yaradılması |

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| 9.1.1.4. | “Elektron su təsərrüfatı” informasiya sisteminin funksional imkanlarının artırılması | ADSEA | ETSN, ETN, KTN, RİNN, “Azərenerji” ASC | 2024−2027 | Müxtəlif modullar üzrə məlumatların sistemə daxil edilməsi, emalı üçün texniki bazanın və sistem təminatının gücləndirilməsi, o cümlədən infoalqoritm və geniş məlumatlar üçün proqram təminatının işlənilməsi | Modullar üzrə məlumatların vahid sistem əsasında inteqrasiyası; ESTİS-in “Elektron kənd təsərrüfatı” informasiya sistemi (EKTİS) ilə inteqrasiyası | ESTİS-in funksionallığının artırılması və təkmilləşdirilməsi |
| **Məqsəd 9.1.2. İqlim dəyişikliyinin su ehtiyatlarına təsirinin proqnozlaşdırılması** | | | | | | | |
| 9.1.2.1. | Məlumatların müasir proqramlar-dan istifadə əsasında qiymət-ləndirilməsi və iqlim təsirlərinin proqnoz edilməsi | ETSN | ETN, RİNN, ADSEA, NMR NK | 2026−2027 | Texniki-texnoloji infrastrukturun işlənilməsi | Beynəlxalq və yerli monitorinq stansiyalarından və hazırlanmış elektron sistemlər üzərindən məlumatların daxil edilməsi | Hidroqrafik məlumatların süni intellekt əsasında emalı və iqlim təsirlərinin proqnoz modelinin qurulması |
| 9.1.2.2. | Xəzər dənizində su səviyyəsinə iqlim dəyişmələrinin uzunmüddətli təsirinin qiymətləndirilməsi | ETSN | ETN, RİNN, ADSEA, “Azərenerji” ASC | 2024−2027 | Beynəlxalq qurumların iqlim ssenarilərinin regional təsirləri üzrə hesabatlarının təhlili | Xəzər dənizində suyun səviyyəsi üzrə davamlı monitorinqlər aparılması | İqlim amillərinin Xəzər dənizində suyun səviyyəsinə təsirinin müəyyən edilməsi |
